*UOT 371*

***Lalə Nizami qızı Abdullayeva***
*Bakı Qızlar Universiteti*
https://orcid.org/0009-0009-8672-4803

# TƏLİMİN KEYFİYYƏTİNİN MEYARLARI VƏ GÖSTƏRİCİLƏRİ

***Лала Низами гызы Абдуллаева***
*Бакинский Университет для Девушек*

# КРИТЕРИИ И ПОКАЗАТЕЛИ КАЧЕСТВА ОБУЧЕНИЯ

***Lala Nizami Abdullayeva***
*Baku University for Girls*

# CRITERIA AND INDICATORS OF THE QUALITY OF TRAINING

**Xülasə.** Hər bir ölkənin inkişafının əsasında onun təhsil sistemi dayanır. Təhsil həm maddi-mənəvi dəyərlərin, həm də dövlətin, cəmiyyətin gücünün göstəricisidir. Təhsilin inkişafının yüksəldilməsi üçün daim yeni islahatlar aparılır, proqramlar hazırlanır, yeniliklər tətbiq edilir, qiymətləndirmələr aparılır. Dünyadakı bütün müəllimlərin əsas vəzifəsi fənn tədris edilən şagirdə fokuslanaraq, ona pedaqogikanın elementlərini ən xırda detalları ilə öyrətməkdir. Tədqiqat işində araşdırılan qiymətləndirmə prosesi ilk tətbiqindən etibarən təhsilin inkişafına yönəlmiş, şagirddə olan bilik və bacarıqların üzə çıxarılmasını həyata keçirməkdədir.

***Açar sözlər:*** *keyfiyyətli təhsil, ixtisaslı müəllim, təhsil proqramları, dövlət dəyərləri, müasir texnologiyalar, şagird maraqları, peşə seçimi*

**Резюме**. Развитие каждой страны основывается на системе образования. Образование является показателем как материальных и нравственных ценностей, так и могущества государства и общества. В целях повышения развития образования постоянно проводятся новые реформы, разрабатываются программы, внедряются инновации, проводятся оценивания. Главная задача всех учителей мира – сосредоточиться на предмете и обучить учащихся азам педагогики в мельчайших деталях. Исследуемый в статье процесс оценивания направлен на развитие образования и выявляет знания и умения обучающегося с первого его применения.

***Ключевые слова:*** *качество образования, квалифицированный учитель, образовательные программы, государственные ценности, современные технологии, ученические интересы, выбор профессии*

**Summary.** The development of each country is based on the education system. Education is an indicator of both material and moral values, and the power of the state and society. In order to increase the development of education, new reforms are constantly being carried out, programs are being prepared, innovations are being introduced, and assessments are being carried out. The main task of all teachers of the world is to focus on the subject and teach it the basics of pedagogy in the smallest detail. The assessment process studied in the research work is aimed at the development of education and reveals the knowledge and skills of the student from the first application.

***Key words:*** *career choice, qualified teacher, educational programs, state values, modern technologies, student interests, career choice*

Kiçikyaşlı məktəblilər dedikdə ibtidai siniflər nəzərdə tutulur. Bu siniflərə aid olan yaş qrupları 6-10, 7-11 yaşa qədər olan yaş qrupunda olan uşaqlardır. İbtidai sinif şagirdlərinin inkişaf səviyyəsi məktəbəqədər uşaqların inkişaf səviyyəsində yüksəkdə dayanaraq, öz fərqliliyi-

ni yüksək səviyyədə göstərir. Kiçikyaşlı məktəblilərin ilk illərində fiziki keyfiyyətlər inkişaf etməyə başlayır. Bu fiziki keyfiyyətlərə əzələ inkişafı, boy və çəki artımı, baş-beynin çəkisi və inkişafı daxildir. İnkişaf edən fiziki keyfiyyətlərlə yanaşı, mənfi keyfiyyət olaraq onurğa əyriliyi də bu yaşlarda görünür. Bu yaşlarda uşaqların ən böyük problemləri sırasında diqqətin toplana bilinməməsi məsələsi dayanır.

Diqqətin toplanması üçün maraq dairəsi kəsb edilməlidir. Tədris zamanı uşaqların maraq tələblərini qarşılayan məsələlər, mövzular və suallar seçilməsi onların diqqətlərinin artmasına, güclənməsinə səbəb verəcək. Bu yaş dövrlərində inkişaf etdirilən digər xüsusiyyət təfəkkürün formalaşmasıdır. Təfəkkürün inkişafının əsas göstəricisi ətraf mühitdə baş verənləri anlayaraq dərk etməkdir. Lakin bu yaş dövründə uşaqlardan güclü təfəkkür inkişafı gözlənilmir. Onlar təfəkkürün müəyyən səviyyəsinə qədər yüksəlirlər. Belə ki, qarşılaşdıqları hadisələri müqayisələr aparmaqla, düşünməklə, nəticələr çıxarmaqla dərk etməyə çalışırlar. Bu yaş dövründə təhsilin inkişafında özünü göstərən əsas xüsusiyyətlərdən biri dilin öyrənilməsi və nitq qabiliyyətinin formalaşmasıdır. Şagirdlər dilin və nitqin önəmini dərk etməyə başlayır və zamanla nitq mədəniyyəti formalaşır. Bunlar isə əqli əməyin inkişafı ilə əlaqədardır.

Təhsil prosesi üçün ən çox önəm daşıyan məsələ onun keyfiyyətli olmasıdır. Təhsilin keyfiyyəti dedikdə, təhsil alanların ehtiyacları ilə təhsil verənlərin bilik və bacarıqlarının üst-üstə düşməsi, təhsil verənlərin öz bacarıqları sayəsində təhsil alanların bütün təhsillə bağlı ehtiyaclarının ödənilməsi nəzərdə tutulur. Çünki yüksək təhsilə sahib olmayan şəxs cəmiyyətdə hər hansı ixtisaslı peşəyə sahib ola bilməz və əgər olarsa, o, fəaliyyət göstərdiyi heç bir sahədə uğur qazana bilməz..

Keyfiyyətli təhsilə təsir edən bir sıra faktorlar var: [3, s 5]

1. *İxtisaslı müəllimin yetişdirilməsi* – Yüksək keyfiyyətli təhsilin əldə edilməsi ilk öncə təhsil verən müəllimdən asılıdır. Bunun üçün də ilk öncə ixtisaslı müəllim yetişdirilməlidir. Təhsil sistemi üçün ölkələrin qarşısında duran əsas məqsədlər sırasında yüksək keyfiyyətli təhsilə sahib müəllimin yetişdirilməsi dayanır. İstənilən sahədə uğurun qazanılması üçün ixtisaslı təhsilə və bu təhsili mükəmməl şəkildə verə biləcək müəllimə ehtiyac var.

2. *Təhsilin aparılmasında istifadə edilən proqram və metodlar* – proqram və metodların hazırlanması və tətbiq edilməsi müasir dövrün bu sahədə tələb olunan vasitələridir. Yüksək səviyyədə hazırlanan proqramlar təhsilin səmərəsinin qaldırılmasında mühüm yerə sahibdir. Təhsilin yüksək səviyyəyə çatdırılması üçün bu sahədə hər bir dövrün tələbinə uyğun metod və proqramlar hazırlanmalıdır. Düzgün qurulmuş metodika və yüksək inkişaf nəzərdə tutan proqramlarla ölkənin təhsil keyfiyyətini yüksək pillələrə çatdırmaq olar. Təhsil keyfiyyətinin yüksəlməsini nəzərdə tutan proqram və metodların hazırlanması zamanı bir neçə məqam nəzərə alınmalıdır:

a) təhsil proqramları milli səviyyədə tərtib edilməlidir. Bunun səbəbi hər kəsin öz övladını ölkənin milli dəyərlərə əsaslanaraq təhsil almasına çalışması, bu dəyərlər üzrə tərbiyə edilməsini arzulamasıdır. Ölkənin milli təhsilində bu ölkəyə aid tarixi, ədəbi mədəniyyət gənc nəslə düzgün aşılanmalı üçün proqramların hazırlanmasında bu sahədə daha çox həssaslıq göstərilməlidir;

b) tərtib edilən proqram elmi olmalı və texnoloji yeniliklərdən istifadə edilərək hazırlanmalıdır. Dünya inkişaf etdikcə, dəyişdikcə təhsilə dair hazırlanan proqramlar da dəyişən yeniliklərə və tələblərə uyğun olaraq tərtib edilməlidir. Proqramlar hazırlanarkən elmi yeniliklər izlənməli və elmə dair qaydalar və qanunlar nəzərə alınmalıdır.

Azərbaycan Respublikasında təhsil sistemi sahəsində önə çıxan əsas məqsədlər:

- xalqının və dövlətinin qarşısında olan məsuliyyətlərini dərk etmək qabiliyyətinə malik, dövlətin sahib olduğu demokratiya prinsiplərinə, sahib olunan adət-ənənələrə, vətənpərvərlik ideyalarına bağlı, azad düşüncə qabiliyyətinə sahib şəxsiyyətin yetişdirilməsi;
- dövlətin dəyərlərini öndə tutaraq bu dəyərləri qorumağa çalışan, geniş dünyagörüşü, müasir təfəkkür, qiymətləndirmə bacarığı, rəqabətə meylli, sahib olunan ixtisas üzrə həm nəzəri, həm də praktiki bilik və bacarıqlara sahib kadr yaradılması;
- sahib olunan ixtisaslara uyğun əmək fəaliyyətlərinə yönləndirmə və bununla ixtisasın

möhkəmlənməsinin və inkişaf etdirilməsinin təmini.

*3. Hazırlanan təhsil proqramları* tətbiqə yönəlməlidir. Praktiki biliklərin və bacarıqların verilməsi bu proqramların əsas istiqamətlərindən biri olmalıdır. Bu bacarıqlara uyğunlaşma, həlletmə, hesabatlılıq kimi bacarıqlar daxildir. Əgər sadəcə bacarıqların nəzərə alınmadığı proqramlar hazırlanarsa, bu cür təhsilin sonu yalnız əzbərçiliklə sonlanar.

*4. Təlim və tədris zamanı yanlış tətbiqlərin istifadəsinə son verilməlidir.* Bu proseslər zamanı bir sıra yanlış tətbiqlərdən istifadə edilir və bunların tətbiqinə son verilməli, yalnız düzgün tətbiqlərə istiqamətlənməlidir. Yanlış tətbiqlərin aradan qaldırılması üçün həyata keçirilməli olan tədbirlər:

a) İlk öncə əzbərçiliyə son verilməli və bunun olmamasına nəzarət edilməlidir. İmtahanlar zamanı növbəti dərs ilinə keçid üçün dərs materiallarının əzbərlənməsi və şagirdlərin bu yola məcbur buraxılması onların passivləşməsi ilə nəticələnir.

b) Verilən təhsildə mərkəzdə müəllim yox, tələbə dayanmalıdır. Şagirdlər tədris zamanı sadəcə müəllimin veridiyi tədrislə, məlumatlarla kifayətlənməməli və öz azad, elmi düşüncələrindən istifadə etməklə, araşdırma aparmalı, müqayisələr etməli, səbəblər axtarmalıdırlar.

c) Təhsildə müasir texnologiyaların istifadə edilməsi zəruridir. Bu texnologiyalara internet, kompüter və başqa texnologiya vasitələri daxildir. Bu texnologiyalardan istifadə müasir dövrün əsas tələblərindən birinə çevrilmişdir.

ç) Dərs tədris edilməsi şagirdin maraqlarının nəzərə alınması ilə aparılmalıdır. Şagirdin maraq göstərmədiyi mövzuların ona məcburən öyrədilməyə çalışılması zamanı yüksək nəticələrin gözlənilməsi mümkünsüzdür. Bu şagirdin nailiyyət göstərməməsilə yanaşı, onun bezməsi ilə nəticələnəcək.

**5. Tədris müəssisələrində (ümumtəhsil müəssisələrində) peşə seçiminə böyük önəm və yer ayrılması**. İxtisas seçimi seçilərkən şagirdin sahib olduğu bilik və bacarıq öndə tutulmalıdır. Belə ki, seçilən ixtisas bilik və bacarığa nail olma səviyyəsi ilə uyğunlaşmalıdır. Əgər bunun əksi həyata keçirilərsə, alınan ixtisasla seçilən ixtisas arasında uyğunsuzluq yaranar və bu da uğursuz nailiyyətlərlə nəticələnərək, alınan təhsilin keyfiyyətsizliyinin göstəricisi sayılar. Peşə seçiminin uğurla aparılması üçün bir sıra amilə əsaslanmaq lazımdır: [4, s. 212-223, s. 279-293]

- Peşə seçiminin şüurlu şəkildə aparılması. Ancaq bu şəkildə seçilən peşə ilə uğurlu iş həyatına nail olmaq olar. Peşə seçimi aparılarkən, maraq göstərilən peşənin mahiyyəti dərk edilməli, bu işdə yaşana biləcək çətinliklər, bu peşə üçün qoyulan tələblər və ona hansı yollarla sahib oluna biləcəyinin mümkünlüyü, bütün bu məsələlərin dərk edilməsi uğurlu nailiyyətlə nəticələnir.

- Yaş xüsusiyyətlərinin peşə seçimində önəmi. Peşə seçimi zamanı yaş xüsusiyyətinin nəzərə alınması önəmlidir. Kiçik yaşlarda peşə seçimi ilə əlaqədar alınan qərarlar zamanla dəyişə, öz əhəmiyyətini şagird üçün itirə bilər. Lakin yetişkinlər bu məsələlərdə daha qərarlı çıxış edərək, seçdikləri peşə seçiminə daha dərin mənalar yükləyərək, öz qərarlarına daha çox sahib çıxırlar. Bu, yetişkinlərin peşə seçimi barədə daha dolğun məlumatların dərk edilməsi, bu sahələrdə bacarıqlarının tam formalaşması, iş mühitinə və iş sahibi olmağa dair düşüncələrin daha dərinləşməsi, baş verənlərə daha realist yanaşa bilmələri ilə əlaqədardır.

- Fərdi xüsusiyyətlərin peşə seçimində nəzərə alınması. Peşə seçimi aparılarkən diqqət göstərilməli olan digər məsələ şagirdin hansı fərdi xüsusiyyətlərə sahib olmasıdır. Bu xüsusiyyətlərə şagirdin bacarıqları, maraqları, qabiliyyətləri, temperamentləri və digər bir xıra xüsusiyyətləri daxildir.

- *Peşə seçimi zamanı müstəqillik və sərbəst qərar vermə.* Peşə seçimi zamanı şagirdin müstəqil düşüncələri, sərbəstliyi nəzərə alınmalı və seçim buna uyğun həyata keçirilməlidir, əks təqdirdə bu seçim nə şagirdə nə ətrafa, nə də cəmiyyətə xeyir verməyəcək. Azərbaycan Respublikasının Konstitusiyasının 35-ci maddəsində deyilir: “Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır”. Şagirdin bu hüquqdan yararlana bilməsi üçün, şagirdi peşə seçimi zamanı düzgün yönləndirmək lazımdır [1, s. 64]

**Problemin elmi yeniliyi:** Müasir dövrdə tətbiq edilən qiymətləndirmə sistemlərinin qarşılıqlı

əlaqələndirilərək, qiymətləndirmə sisteminin bütün aspektlərinin araşdırılıb təqdim edilməsidir.

**Problemin nəzəri əhəmiyyəti:** Təhsil sistemində tətbiq edilən qiymətləndirmə sisteminin hansı məqsədlərlə tətbiq edildiyi və bu tətbiqetmə ilə hansı nəticələrin əldə edildiyi, nə kimi yeniliklərin doğurduğunu göstərmək.

**Problemin praktik əhəmiyyəti:** Tətbiq edilən qiymətləndirmədə hansı üsulların, metodların, göstəricilərin, növlərin iştirakının göstərilməsi və nümunələrlə qiymətləndirməyə misallar çəkilməsi.

Təlimin qiymətləndirilməsi təhsil prosesində önəmli yerə sahibdir. Məhz qiymətləndirmə prosesi zamanı şagirdin malik olduğu bacarıqlar, bilik səviyyəsi yoxlanılır, müəyyənləşdirilir. Qiymətləndirmə prosesinin düzgün şəkildə aparılması ilk öncə şagirdin bu proses ilə düzgün şəkildə tanış edilməsi ilə başlayır. Məhz buna görə tədqiqat işinə pedaqogika elminin mahiyyəti, metodları, təhsil sistemi, təlim prosesləri ilə bağlı müzakirələrlə başlanılır. Qiymətləndirilmənin mahiyyəti, şagirdə qatacağı önəm, onun gələcək həyatı üçün bu qiymətləndirmələrin nə kimi kömək edəcəyi kimi düşüncələrin anlanması, dərk edilməsi şagirdin həm təhsilə, həm də qiymətləndirmə sisteminə olan inancı və özünüqiymətləndirmə istəyini formalaşdırır. Qiymətləndirmənin düzgün aparılması, yüksək nəticələrin əldə edilməsi üçün bir sıra metod və prinsiplər tətbiq edilir. Bu metod və prinsiplər davamlı olaraq inkişaf etdirilərək tələblərə daha çox uyğunlaşdırılmalıdır. Qiymətləndirmənin mahiyyətini bilməyərək təhsil sisteminə başlayan şagird müəllim tərəfindən aldığı düzgün istiqamətləndirmə ilə beynini və düşüncələrini formalaşdırır. Təhsildə şagirdin tələblərinin və bacarıqlarının nəzərə alınması önəmlidir. Müəllim tədris metodlarından istifadə edərək bu bilik və bacarıqların üzə çıxarılmasında ilk mərhələyə başlamış olur. Qiymətləndirmədə yüksək nəticələrin əldə edilməsində iştirak edən digər əsas məsələ təhsilin keyfiyyətidir. Qiymətləndirmə prosesində şagirdin uğur qazanması üçün ilk öncə şagirdlərin yaş və fərdi xüsusiyyətləri müəyyənləşdirilməlidir və tətbiq edilən qiymətləndirmə bu xüsusiyyətlərin nəzərə alınması ilə tətbiq edilməlidir. Qiymətləndirmə zamanı önəmli olan yeganə məsələ tədris materiallarının mənimsənilməsi yox, həm də alınan biliklərlə hansı fəaliyyətlərdə iştirakın mümkünlüyü, bu sahədə tutulan mövqe, formalaşan fikir və dəyərlər kimi məsələlərdir.

**Ədəbiyyat:**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. -Bakı: Bakı Çap evi -2012. – 64 s.
2. Hüseynova, N. Keyfiyyətin yüksəldilməsində qiymətləndirmənin rolu // -Bakı: Elm və innovativ texnologiyalar, -2020. № 12. -s. 39-47. -s 9.
3. Mərdanov, M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində / M.C. Mərdanov -Bakı: Çaşıoglu, -2009. -526 s.
4. Mehrabov, A.O. Müasir təhsilin konseptual problemləri / A.O. Mehrabov -Bakı: Mütərcim, -2010. -s. 212-223., -s. 279-293.

**E-mail:** lale.emirbeyova38@gmail.com

**Rəyçilər:** *ped.elm.dok.,prof.* **H.H. Əhmədov,**
*ped.ü.fəls.dok., dos.* **E.R. Hüseynova**
**Redaksiyaya daxil olub:** 23.04.2023